**ODLAR YURDU UNİVERSİTETİ**

# İSTEHSALAT TƏCRÜBƏSİ PROQRAMI

(bakalavr səviyyəsi)

Kafedra – «İqtisadiyyat və iqtisadi münasibətlər»

İxtisasın şifri və adı: 050405 “İqtisadiyyat”




**Bakı-2023**

# ODLAR YURDU UNİVERSİTETİ

# İSTEHSALAT TƏCRÜBƏSİ PROQRAMI

(bakalavr səviyyəsi)

Kafedra – «İqtisadiyyat və iqtisadi münasibətlər»

İxtisasın şifri və adı:  050405 “İqtisadiyyat”

Proqram Odlar Yurdu Universitetinin ″İqtisadiyyat və iqtisadi münasibətlər″ kafedrasının **09.01.2022-ci il tarixli (Protokol №6)** iclasında müzakirə edilmiş və universitetin Elmi Şurasının 26**.01.2023-cü il** tarixli qərarı ilə təsdiq edilmişdir.

**Bakı-2023**

**Tərtib edənlər:** Odlar Yurdu Universitetinin “İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının dosenti Babək Xasay oğlu Feyzullayev

Odlar Yurdu Universitetinin “İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının müəllimi Nərgizə Səməndərovna Muradova

**Elmi redaktor:** Odlar Yurdu Universitetinin “İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının professoru, iqtisad elmlər doktoru Əli Qəmbərəli oğlu Əlirzayev

**Rəyçilər:** Odlar Yurdu Universitetinin “İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Natiq Ənvər oğlu Qarayev

“İqtisadçı Tələbələrin Elmi Fəaliyyətinə Yardım” İB-nin sədri Aslan Cavid oğlu Əzimzadə

Təcrübə proqramı OYU-nun “Karyera və təcrübə” mərkəzi ilə razılaşdırılıb.

“Karyera və təcrübə” mərkəzinin həmsədri:

__________________________ dos. F.İ.İbadov

**“Odlar Yurdu Universiteti” nəşriyyatı 2023**

# GİRİŞ

“İqtisadiyyat” ixtisası cəmiyyətin həyatının əsasını təşkil edən iqtisadi, sosial, biznes, xidmət sferasının fəaliyyəti, inkişafı, tənzimlənməsi, iqtisadi hüquqi əsasları, qiymət mexanizmi, insan resurslarının idarə olunması proseslərin idarə olunmasında iqtisadi riyazi, ekonometrik üsullardan, vasitələrdən istifadənin əsasları haqqında ümumi prinsipləri, qaydaları reallaşdırmanın dövlət və bazar mexanizmi öyrədir.

“İqtisadiyyat” ixtisası ilə əlaqədar fənlərin öyrənilməsi nəticəsində tələbələr ölkə iqtisadiyyatının fəaliyyəti strukturu, inkişaf dinamikası, sosial-iqtisadi proseslərin tənzimlənməsinin prinsipləri, yolları, hədləri, istiqamətləri və meyarları haqqında kifayət qədər biliklərə malik olacaqlar. Bakalavrlar milli iqtisadiyyatın tənzimlənməsi, onun hüquqi bazası, daşınmaz əmlakın qiymətləndirilməsi, insan resurslarının idarə olunması, aqrar sferanın inkişafı, habelə həmin proseslərin təhlilinin iqtisadi riyazi, ekonmetrik üsulları haqqında kifayət qədər biliyə malik olacaqdır.

“İqtisadiyyat” ixtisası üzrə istehsalat təcrübəsinin keçirilməsi müasir cəmiyyətimiz üçün aktual olan problemlərdən ən vacibi gənc nəslin təlim və tərbiyəsi, onun gələcək həyat fəaliyyətinə hazırlanmasıdır. Təcrübə prosesi

dünya təhsil sisteminə inteqrasiya edilməklə, gənc nəslin dünyagörüşü, mənəvi dünyasının zənginləşməsi, yeni texnologiyalara yiyələnməsi, insanların yaradıcılıq potensialının artması şəraitində həyata keçirilir.

## 1. İstehsalat təcrübəsinin məqsədləri

"İqtisadiyyat" ixtisası üzrə istehsalat təcrübəsinin keçrilməsi "Ali təhsil müəssisələrində tələbələrin istehsalat təcrübəsi haqqında Əsasnaməyə" və həmin ixtisasın tədris planına müvafiq olaraq aparılır.

Hal hazırda tələbələrin istehsalat təcrübəsinin təşkili istiqamətində bir neçə yeni proqramlar və layihələr mövcuddur. Burada əsas məqsəd tələbələrin tədris prosesində mənimsədikləri bilik və bacarıqların təcrübədə həyata keçirilməsindən və peşəkarlıq təcrübəsi əldə etməkdən ibarətdir. İstehsalat təcrübəsi prossesində təcrübəçilər iqtisadiyyatın predmeti olan və ayrı-ayrı müəssisələrin bilavasitə iqtisadi fəaliyyəti, müəssisələrdə ixrac potensialının qiymətləndirilməsi, idarəetmənin təşkili, expo-marketinq tədqiqatlarının aparılması, müəssisələrin iqtisadi əlaqələri haqqinda informsiyaların toplanması və təhlili, idarəetmə qərarlarının qəbul edilməsi və s. haqqında praktiki vərdişlər əldə edəcəklər.

“İqtisadiyyat” ixtisası üzrə istehsalat təcrübəsi tədris planına müvafiq olaraq aparılır. Təcrübənin keçirildiyi obyektlər prioritet istiqamətlərdə yerləşən, iri istehsal birlikləri, konsern, səhmdar cəmiyyətləri, birgə müəssisələr və şirkətlər, eləcə də nazirlik və idarələr ola bilərlər. OYU- da təhsil alan xarici tələbələr istehsalat təcrübəsini sponsor-müəssisələrdə və onların hesabına MDB və digər xarici ölkələrin müəssisə və şirkətlərində keçə bilərlər.

Ümumi olaraq istehsalat təcrübəsinin məqsədləri:

1. təşkilatın fəaliyyətinin təhlili - təcrübənin əsası, o cümlədən onun missiyası, iqtisadi fəaliyyətin vəzifələri, bazar şəraiti, təşkilati struktur, biznes proseslərinin öyrənilməsi;
2. bütövlükdə təşkilatın və onun filial şəbəkəsinin iqtisadi fəaliyyətinin göstəricilərinin dinamikasının öyrənilməsi;
3. zəruri analitik hesablamaların aparılması və fəaliyyətin səmərəliliyinin yüksəldilməsi üçün əsas istiqamətlərin və təşkilatın inkişaf perspektivlərinin müəyyən edilməsi;
4. təcrübə üçün fərdi tapşırığın yerinə yetirilməsidir.

## 2. İstehsalat təcrübəsinin vəzifələri

## 2.1.Kafedradan təcrübəyə rəhbərlik edən müəllimin vəzifələri:

OYU "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrası üzrə təcrübəyə rəhbərlik edən müəllim aşağıdakı vəzifələri yerinə yetirir:

1. İlk olaraq təcrübəçilərlə görüşərək, birgə konfransda iştirak edirlər və təcrübə prosesinin keçirilməsi metodologiyası ilə tanış olurlar.
2. Proqrama və kafedranın tədris planına müvafiq olaraq istehsalat təcrübəsinə elmi rəhbərlik edir və onun yüksək səviyyədə keçirilməsini təmin edir.
3. Təcrübə müəssisəsi və inzibati rəhbərliklə tanış olduqdan sonra təyin edilmiş təcrübə rəhbəri ilə birlikdə müəssisənin xarici iqtisadi fəaliyyətin təşkili, iqtisadiyyatı və idarə edilməsi, maliyyə münasibətlərinin təşkili, ixrac məhsullarına qiymətin əmələ gəlməsi, ixrac-idxal əməliyyatlarının xüsusiyyətləri, xarici bazarda fəaliyyətin hüquqi əsasları və s məsələlər üzrə məsləhətlər verilməsini təşkil edir:
4. Təlimata uyğun olaraq, təcrübəçi tələbələr üçün yaradılmış əmək şəraiti ilə tanış olur, lazım olduğu halda müvafiq qaydalarda müdaxilə edir və müvafiq şəraitin yaradılmasını

xahiş edir. Eyni zamanda təcrübəçilərin daxili əmək intizamına əməl etmələrini tövsiyyə edir və nəzarət edir.

5. Təcrübə prossesində müəssisələrin ictimai həyatında, müəssisədən olan təcrübə rəhbərləri ilə birlikdə, tələbələrin iştirakının istiqamətləndirilməsinə nəzarət edir və müvafiq tövsiyyələrini verir.
6. Təcrübə müddətində tələbələrin öyrəndiklərinin və gördükləri işlərin qısa şərhinin gündəliklərində qeydini və təcrübə işinə dair hesabatları yoxlayır, nəticədə təcrübənin nəticələri üzrə tərtib edilmiş yazılı hesabatın müdafiəsini qəbul edən komissiyanın işində iştirak edir.
7. Təcrübə rəhbəri istehsalat təcrübəsinin yekununda təcrübənin keçirilməsi və tələbələrin praktiki hazırlığının təkmilləşdirilməsi üzrə kafedraya yazılı hesabat təqdim edir.

## 2.2.Müəssisədən ayrılmiş təcrübə rəhbərinin vəzifələri

Təcrübəçilərə rəhbərlik etmək üçün müəssisədən ayrılmış təcrübə rəhbərləri aşağıdakı vəzifələri yerinə yetirir:

1. Universitetin təcrübə rəhbəri ilə birlikdə proqrama və təqvim planına uyğun olaraq tələbələrin təcrübə işini təşkil edir və onun gedişatına nəzarət edir;

2. Keçən tələbələrə istifadə etməyə imkan yaradır, hesabatın yazılması üçün müvafiq materialların toplanmasına köməklik edir;
3. Təcrübəçi tələbələri müəssisənin ictimai-siyasi həyatına və müəssisədaxili elmi-tədqiqat işlərinə cəlb edir;
4. Təcrübəçilərə gündəliyin doldurulması, təcrübənin nəticələrinə əsasən hesabatların hazırlanması sahəsində məsləhətlər verir, tələbələrin təcrübə proqramını yerinə yetirmələri barədə gündəlikdə öz qeydlərini aparır.
5. İqtisadi əməliyyatlar sahəsində yerinə yetirilən bütün işlərdə -kontraktların bağlanılması, bank əməliyyatları, vergilərin ödənilməsi, gömrük xidməti və s. işlərdə təcrübəçi tələbələrin bilavasitə iştirakı vasitəsi ilə fəaliyyətlərini təmin edir;
6. Daxili əmək intizamına əməl olunmasına nəzarət edir, tələbələrin təcrübə yerlərinə gəlib-getməsinin qeydiyyatını aparmaq üçün tabel uçotu tətbiq edir,
7. Müvafiq istehsalat təcrübəsi başa çatdıqda tələbənin öyrəndiklərini, təcrübə proqramının mənimsənilmə dərəcəsini, nizam-intizamlılığını, ictimai işlərdə iştirakını və s. əks etdirən yazılı xasiyyətnamə təqdim edir.

## 3. Bakalavr pilləsinin strukturunda istehsalat təcrübəsinin yeri

İstehsalat təcrübəsi tələbələrin peşə və praktiki hazırlığına birbaşa yönəlmiş bakalavr təhsilinin məcburi bir növüdür.

İş təcrübəsi bakalavr tələbələri üçün təhsil proqramlarının tərkib hissəsidir. İstehsalat təcrübəsi bakalavrların nəzəri kursların mənimsənilməsi nəticəsində əldə etdikləri bilik və bacarıqları möhkəmləndirir, praktiki vərdişləri inkişaf etdirir və tələbələrin ümumi mədəni və peşə səriştələrinin kompleks şəkildə formalaşmasına töhfə verir.

Təhsil proqramlarına uyğun olaraq bakalavr tələbəsinin istehsalat təcrübəsi humanitar, sosial-iqtisadi, riyaziyyat və təbiət elmlərinin akademik fənləri və peşə tsiklləri üzrə əvvəllər əldə edilmiş biliklərə əsaslanır. İstehsalat təcrübəsinin məzmunu məntiqi və metodik cəhətdən öyrənilən fənlərlə sıx bağlıdır, çünki istehsalat təcrübəsinin əsas məqsədi, ilk növbədə, bu fənlərin öyrənilməsi zamanı tələbələrin əldə etdikləri nəzəri bilikləri və praktiki bacarıqları möhkəmləndirmək və dərinləşdirməkdir.

İstehsalat təcrübəsini uğurla başa çatdırmaq üçün zəruri olan və bu fənlərin mənimsənilməsi nəticəsində əldə edilmiş “giriş” bilik və bacarıqlarına aşağıdakılar daxildir:

• institusional iqtisadiyyatın prinsiplərini, qanunauyğunluqlarını və mexanizmlərini, təşkilati-hüquqi formasını, istehsal və idarəetmə strukturunu xarakterizə edərkən onlardan istifadə etmək bacarığını, konkret təşkilatın iqtisadi dayanıqlığının təmin edilməsinin əsas şərtlərini hərtərəfli bilmək;

• riyazi təhlilin, ehtimal nəzəriyyəsinin və riyazi statistikanın əsaslarını bilmək və şirkətlərin (təşkilatların) iqtisadi fəaliyyətinin əsas göstəricilərinin statistik təhlilində və xarici və daxili mühit amillərinin təsirinin qiymətləndirilməsində onlardan istifadə etmək bacarığı;

• şirkətlərin fəaliyyətinin hüquqi əsaslarını bilmək, peşəkar fəaliyyət dairəsini tənzimləyən qanunvericilik və normativ hüquqi aktlar sistemində naviqasiya etmək bacarığı və təşkilatların təsərrüfat fəaliyyətinin hüquqi qiymətləndirilməsində onları tətbiq etmək istəyi;

• informasiya sistemlərinin terminologiyası və təsnifatı, informasiyanın mühafizəsi yolları və iqtisadi problemlərin həlli üçün peşəkar kompüter proqramlarından istifadə etmək bacarığı haqqında biliklər;

• maliyyə sisteminin əsasları, maliyyə - kredit bazarlarının mahiyyəti və funksiyaları haqqında biliklər; maliyyə təşkilatları, onlardan maliyyə təhlili üçün istifadə etmək bacarığı;

• mühasibat uçotunun növləri və prinsiplərini bilmək, balans məlumatları əsasında təşkilatın maliyyə vəziyyətini təhlil etmək bacarığı;

• makroiqtisadi planlaşdırma və proqnozlaşdırmanın əsaslarını bilmək, planlaşdırma və proqnozlaşdırmanın ekonometrik və statistik üsullarını tətbiq etmək bacarığı;

• marketinqin əsas anlayışlarını, marketinq tədqiqatının prinsip və üsullarını bilmək; marketinq məlumatı sistemləri və onların toplanması üsulları, onların əsasında marketinq planı və büdcə tərtib etmək bacarığı;

• bazar iqtisadiyyatı sistemində idarəetmənin əsasları haqqında biliklər, idarəetmə sistemlərindəki funksiyalar və təşkilati strukturlar, idarəetmə informasiya sistemləri, təşkilatın xarici və daxili mühitinə birbaşa və dolayı təsir edən amilləri qiymətləndirmək bacarığı.

İstehsalat təcrübəsi prosesində tələbə aşağıdakı peşə vəzifələrini həll etmək bacarığına və istəyinə malik olmalıdır:

• şirkətlərin (müəssisələrin) fəaliyyətini xarakterizə edən iqtisadi və sosial-iqtisadi göstəricilərin hesablanması üçün zəruri olan məlumatların toplanması və təhlili;

• idarəetmə qərarlarının qəbulu üçün təşkilatın xarici və daxili mühitinin amilləri haqqında məlumatların toplanması, işlənməsi və təhlili;

• tapşırığa uyğun olaraq iqtisadi məlumatların massivlərinin işlənməsi, alınan nəticələrin təhlili, qiymətləndirilməsi, şərh edilməsi və nəticələrin əsaslandırılması;

• məlumat icmallarının, analitik hesabatların hazırlanması, layihənin effektivliyinin qiymətləndirilməsi;

• qərarların qəbulu, fəaliyyətin planlaşdırılması və nəzarət üçün məlumat toplamaq üçün təşkilatın daxili informasiya sisteminin qurulması;

• təşkilatların müxtəlif fəaliyyət göstəriciləri üzrə məlumat bazalarının yaradılması və saxlanılması;

• informasiya və analitik fəaliyyətin nəticələrinə dair hesabatların hazırlanması.

## 4. İstehsalat təcrübəsinin keçirilmə yeri və vaxtı.

"İqtisadiyyat" ixtisası üzrə istehsalat təcrübəsinin keçirilməsi təşkilati-hüquqi formasından və mülkiyyət formasından asılı olmayaraq təsərrüfat xidmətlərini əhatə edən təşkilatlar ola bilər.

Müqavilə əsasən təşkilatda təcrübə keçmək üçün təlimatlar tələbələrə onların istəkləri və təcrübəyə cavabdeh şəxsin tövsiyələri nəzərə alınmaqla verilir.

Təcrübə dövründə tələbələrin vəzifələri aşağıdakılardır:

1. İlk olaraq OYU tərəfindən keçirilən konfransda iştirak edərək, təcrübə barəsində məlumat almaq;
2. Əmrlə tanış olmaq, təcrübə yerlərinə göndərişi, gündəliyi və təcrübənin proqramını kafedradan almalı, onun məzmunu və tələbləri, gündəliyin doldurulması, təcrübə haqqında hesabatın tərtib olunması və rəsmiləşdirilməsi qaydası ilə tanış olmalı;
3. Təcrübə rəhbərləri ilə birlikdə təcrübə dövrü üçün təqvim planını dəqiqləşdirməli və ona qəti əməl etməli, təcrübə obyektində görülən işin həcmini göstərməklə gündəlikdə hər gün qeydiyyat aparmalı, görülən işlərin qısa məzmununu əks etdirməli;

4. Müəssisələrdə mövcud keyfiyyəti idarəetmə və təminetmə sistemlərinin xüsusiyyətlərini, onların inkişafının əsas mərhələlərini;
5. Qüvvədə olan daxili nizam-intizama, təhlükəsizlik texnikasına, əməyin mühafizəsi və istehsalat sanitariyası qaydalarına əməl etməli;
6. Yerinə yetirilən iş üçün və onun nəticələrinə görə ştat işçiləri qədər məsuliyyət daşımalı;
7. Bütün tapşırıqların yerinə yetirilməsinə dair tam tərtib edilmiş gündəliyi və yazılı hesabatı təcrübə rəhbərinə təqdim etməli və hesabatı müdafiə etməlidir.

## 5. Bakalavr tələbəsinin təcrübə keçməsi nəticəsində formalaşan kompetensiyaları

Təcrübə nəticəsində tələbə aşağıdakı praktiki bacarıqlara, universal və peşəkar səriştələrə yiyələnməlidir:

- təsərrüfat subyektlərinin fəaliyyətini xarakterizə edən iqtisadi və sosial-iqtisadi göstəricilərin hesablanması üçün zəruri olan ilkin məlumatları toplamaq və təhlil etmək bacarığı;
- standart metodlar əsasında təsərrüfat subyektlərinin fəaliyyətini xarakterizə edən iqtisadi və sosial-iqtisadi göstəriciləri hesablamaq bacarığı;

- planların iqtisadi bölmələrinin hazırlanması üçün zəruri hesablamaları aparmaq, onları əsaslandırmaq və təşkilatda qəbul edilmiş standartlara uyğun olaraq işin nəticələrini təqdim etmək bacarığı;
- qarşıya qoyulmuş iqtisadi vəzifələrin həlli üçün zəruri olan məlumatları toplamaq, təhlil etmək və emal etmək bacarığı;
- tapşırığa uyğun olaraq iqtisadi məlumatların emalı üçün alətlər seçmək, hesablamaların nəticələrini təhlil etmək və nəticələri əsaslandırmaq bacarığı;
- müxtəlif mülkiyyət formalı təşkilatların, şöbələrin hesabatlarında olan maliyyə, mühasibat və digər məlumatları təhlil etmək və şərh etmək və idarəetmə qərarlarının qəbul edilməsi üçün alınan məlumatlardan istifadə etmək bacarığı;
- analitik və tədqiqat problemlərinin həlli üçün müasir texniki vasitələrdən və informasiya texnologiyalarından istifadə etmək bacarığı;
- idarəetmə qərarları üçün təklif olunan variantları tənqidi qiymətləndirmək və sosial-iqtisadi səmərəlilik meyarlarını, riskləri və mümkün sosial-iqtisadi nəticələri nəzərə almaqla onların təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq və əsaslandırmaq bacarığı

- İstehsalat təcrübəsi keçmək və səriştələrə yiyələnmək prosesində bakalavr mütləq olmalıdır

**İstehsalat təcrübəsi nəticəsində tələbə bacarmalıdır:**

- təşkilatın fəaliyyətinin əsas sosial-iqtisadi göstəricilərini təhlil etmək;
- istehsalın səmərəliliyinin artırılması üçün ehtiyatları müəyyən etmək və təşkilatın fəaliyyətinin təkmilləşdirilməsi üçün əsas istiqamətləri formalaşdırmaq;

**İstehsalat təcrübəsi nəticəsində tələbə sahib olmalıdır:**

- təşkilatın fəaliyyətinin əsas sosial-iqtisadi göstəricilərinin hesablanması metodologiyası;
- təşkilatın fəaliyyətinin faktorial və statistik təhlili və planlaşdırılması üsulları.

## 6. İstehsalat təcrübəsinin strukturu və məzmunu

16 fevraldan başlayaraq, tədris planına uyğun olaraq istehsalat təcrübəsi 14 həftə ərzində keçirilir. Təcrübə keçən tələbənin iş günü müddəti beşgünlük iş həftəsidir. Tələbənin iş

müddəti onun təcrübə keçdiyi müəssisənin iş rejiminə müvafiq olaraq müəyyənləşdirilir. Ümumilikdə təcrübə həftə ərzində 18 saat olmalıdır.

“İqtisadiyyat” ixtisası üzrə istehsalat təcrübəsinin keçrilməsi ixtisaslar üzrə istehsalat təcrübəsi OYU ilə müqavilə imzalamış müəssisələrin müvafiq şöbə və struktur bölmələrində keçirilir.

Təcrübə müddətində tələbələr aşağıdakı ştat vəzifələrinin əvəzedicisi kimi istifadə oluna bilər:

-Maliyyə və plan-iqtisad xidmətində iqtisadçı. struktur şöbə rəhbəri, yaxud iqtisadçı-təlimatçı; müəssisənin bölmə rəhbəri, iqtisadçı və təşkilatçı;

Tələbələr istehsalat təcrübəsi keçməklə aşağıdakı məsələləri bilməli və öyrənməlidirlər:

1. İqtisadi modelləşdirmə sahəsində baza biliklərinə malik olmaq və onlardan istifadə etməyi bacarmaq;

2. İqtisadi siyasətin məqsədləri və alətləri ilə əlaqəli anlayışları dərindən başa düşmək, fiskal, monetar və məzənnə siyasəti üzrə bilikləri və bunun iqtisadi siyasət məsələlərinə necə tətbiq edildiyini bilmək, böhran dövründə iqtisadiyyatın tənzimlənməsi alətlərindən istifadə etməyi bacarmaq;

3. İqtisadiyyatda dövlət sektorunun rolu, sosial sahələr üzrə dövlət siyasətinin əsaslarına, inklüziv sosial-iqtisadi siyasət üzrə baza biliklərə malik olmaq, bu siyasət istiqamətində fəaliyyətlərin müəyyənləşdirilmiş qurumlar və qaydalar çərçivəsində tənzimlənməsinin, institusional yanaşmanın əhəmiyyətini dərk etmək;

4. Beynəlxalq iqtisadiyyat, milli iqtisadiyyatların beynəlxalq iqtisadiyyatdakı rolu, müxtəlif milli iqtisadiyyatların arasındakı qarşılıqlı münasibətlər, onların təkamülü və nəticələri haqqında biliklərə sahib olmaq. Müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq;

5. Beynəlxalq iqtisadiyyat, beynəlxalq ticarət, beynəlxalq biznes, tədiyə balansı və beynəlxalq maliyyə ilə bağlı anlayışları bilmək;

6. İqtisadi məlumatların işlənməsi üçün instrumental vasitələri seçmək, hesabatların yekunlarını təhlil etmək və alınmış nəticələrdən istifadə etməyi bacarmaq;

7. İdarəetmə qərarlarının, sosial-iqtisadi effektivliyi, riskləri və mümkün nəticələri nəzərə almaqla, onun təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq və əsaslandırmağı bacarmaq;

8. İnkişaf iqtisadiyyatının ortaya çıxma zərurətini bilmək, məsələnin mikro və makro səviyyəli amillərini təhlil edə

bilmək, ölkələri mövcud inkişaf kriteriyalarına görə kateqoriyalara ayırmaq və buna uyğun iqtisadi siyasət təkliflərini verə bilmək;

9. Dövlət və özəl sektor tərəfindən həyata keçirilən beynəlxalq iqtisadi münasibətlərdə optimal qərar qəbul etmək prossesi və metodlarını bilmək, iqtisadi diplomatiya yolu ilə bazar payını artırmaq və riskləri azaltmaq istiqamətində təkliflər hazırlamağı bacarmaq;

Bundan əlavə, aşağıdakı işlər həyata keçirilməlidir:

- təşkilatın istehsal, təsərrüfat və maliyyə fəaliyyətinin vəziyyəti və inkişaf perspektivləri öyrənilir;
- təşkilatın son 1-2 ildə işinin əsas texniki-iqtisadi göstəricilərini öyrənilməlidir;
- təşkilatın və ya onun struktur bölməsinin kadr tərkibinin təhlili aparılmalıdır.
- Təcrübənin bu mərhələsini uğurla həyata keçirmək üçün tələbəyə təşkilatın istehsal, təsərrüfat və maliyyə fəaliyyəti haqqında illik hesabatından, balans hesabatından və təşkilatın digər planlaşdırma və hesabat sənədlərindən istifadə etmək tövsiyə edilə bilər.

## 6.1.İstehsalat təcrübəsinin keçməsi üçün təxmini plan

İstehsalat təcrübəsinin təşkili və keçirilməsi 3 mərhələdən ibarətdir:

1. Hazırlıq mərhələ;
2. Əsas (iş) mərhələ;
3. Yekun mərhələ.

Birinci mərhələdə təcrübə yerlərinin axtarılması, bakalavr buraxılış işlərinin mövzularının müəyyən edilməsi və təcrübə üzrə fərdi iş planının təsdiq edilməsi yerinə yetirilir.

İkinci iş mərhələsində tələbələr müəyyən edilmiş müddətlərdə təcrübələrini keçir və yekun hesabatlarını kafedradan olan rəhbərlərinə təqdim edirlər.

Üçüncü yekun mərhələdə isə tələbələr təcrübə hesabatlarını kafedra komissiyasının qarşısında müdafiə edirlər.

***Hazırlıq mərhələsi:***

15 sentyabr tarixindən tələbələr təcrübəyə başlayacaqları günə qədər davam edir və aşağıdakılarla nəticələnir:

- Kafedranın təsdiq etdiyi və tələbələrin konkret təcrübə yerlərinin müəyyən edilməsi;
- Tələbələrin təcrübə yerləri və rəhbərləri ilə tanışlığı;

- Tələbələrin təcrübə rəhbərləri arasında iş bölgüsünün aparılması;
- Kafedra tərəfindən təcrübənin keçirilməsinə dair kompleks fərdi planlarının hazırlanaraq onun kafedra müdiri və təşkilat tərəfindən təsdiqlənməsi.

***Əsas (iş) mərhələsi***

Əsas (iş) mərhələ 15 fevral tarixindən 25 May tarixinə qədər davam edir. Bu mərhələ tələbələrin təcrübə proqramı və fərdi iş planını yerinə yetirilməsi ilə nəticələnir.

Əsas mərhələ özündə aşağıdakı modulları (fərdi tapşırıqların yerinə yetirlməsi mərhələləri) və onun nəticələrini əks etdirir.

Ümumi modul tələbənin təşkilatla ümumi tanışlığını, onun fəaliyyət sahələrini, daxili strukturunu, tarixi, istehsalat texnologiyaları, idarəetmə sisteminin və təşkilatın perspektiv inkişafının öyrənilməsini nəzərdə tutur.

Xüsusi modul şirkətin fəaliyyətinin əhatə dairəsi, əməkdaşların vəzifə öhdəliklərinin təhlili və ya onun hazırlanması, fərdi tapşırığın hazırlanması, zəruri məlumatların toplanılması, tapşırığın hesablanma və analitik hissəsini nəzərdə tutur.

İxtisaslaşdırılmış modul ixtisas işinin əsası olmaqla təcrübənin nəticələrinə görə yekun təkliflərin və tövsiyyələrin hazırlanmasını, empirik məlumatların toplanması və təhlilini nəzərdə tutur.

Bu mərhələ ümumi və xüsusi modul materiallarının da istifadə edilməsi ilə təcrübə hesabatının tərtib olunması ilə nəticələnir.

"İqtisdiyyat" ixtisası üzrə ixtisaslaşan tələbələrin istehsalat təcrübəsinin məzmunu

**I. Ümumi modul.**

Təcrübə bazası olan təşkilatın ümumi xarakteristikası

Müəssisəsinin faəliyyət göstərdiyi sahə üzrə strukturunun öyrənilməsi:

1) Müəsisənin adı, inkişaf tarixi, yerləşdiyi ərazi;
2) Müəssisənin fəaliyyətinin hüquqi əsası;
3) Müəssisəin əsas fəaliyyəti haqqında məlumat;
4) Tənzimləyici təşkilatla və diğər dövlət qurumlar ilə əlaqəsi - lisenziya növləri, dövrilik və hesabatların təqdim etmə qaydaları.

5) Müəssisənin idarəetmə strukturu (Səhmdarların Ümumi Yığıncağı; Müşahidə Şurası; Audit Komitəsi; İdarə Heyəti; Daxili komitələr; Baş direktorlar).
6) Daxili komitələr: Aktiv və passivləri idarəetmə komitəsi və digərləri.
7) Müəssisənin strateji planı haqqında məlumat,
8) Müəssisənin strukruru, tərkibi, missiyası və diğər məlumatları

II. **Xususi modul**.

Təcrübə keçirilən müəssisnin departamentin səciyyələndirilməsi

- Təcrübə kecirilən Departamentin təşkilati strukturu;
- Müəssisədə idarəetmə strukturunda departamentlərin fəaliyyəti,
- Müəssisədə şöbə müdirləri və supervayzerlər;
- Funksional məsələlər;
- Müəssisənin əməkdaşlarının funksiyaları və vəzifələri;
- Müəssisənin və onun təşkilatı bölmələrin fəaliyyətinin normativ - hüquqi bazası;
- Müştəri bazasının strukturu.
- Müştərilərin cəlbedilməsi üsulları;
- Xidmət göstərmək haqqında müqavilələrin növləri və formaları;

- Xidmət göstərilmə texnologiyaları;
- Daxili uçot və nəzarət sistemi;
- Müəssisənin bank əməliyyatların mühasibat uçotunun xüsusiyyətləri;
- Baş ofislə (müəssisədə) qarşılıqlı əlaqə qaydaları.

**III. İxtisaslaşdırılmış modul**

- Müəssisədə iqtisadiyyatla bağlı normativ hüquqi sənədlərdən istifadə etmək
- İqtisadi məlumatların işlənməsi üçün instrumental vasitələri seçmək
- Müəssədə göstərilən xidmətlər:
- Müştərilər üçün E – commerce xidmətlərin mövcudluğu
- İnvestisiya qiymətli kağızlar və investisiya fəaliyyəti haqqında məlumat
- Hesabatların yekunlarını təhlil etmək və alınmış nəticələrdən istifadə etmək
- İdarəetmə qərarlarının, sosial-iqtisadi effektivliyi, riskləri və mümkün nəticələri nəzərə almaqla, onun təkmilləşdirilmək
- Müəssisənin bazar payını artırmaq və riskləri azaltmaq
- mikro və makro səviyyəli amilləri təhlil edə bilmək,
- Beynəlxalq iqtisadiyyat, milli iqtisadiyyatların beynəlxalq iqtisadiyyatdakı rolu, müxtəlif milli

iqtisadiyyatların arasındakı qarşılıqlı münasibətlər, onların təkamülü və nəticələri haqqında biliklərə sahib olmaq

- Ölkələri mövcud inkişaf kriteriyalarına görə kateqoriyalara ayırmaq və buna uyğun iqtisadi siyasət təkliflərini təqdim etmək

## 6.2.Təcrübə hesabatinin tərtib olunmasina dair metodik göstərişlər

Təcrübə hesabatının məzmun və strukturuna olan tələblər

- Təcrübə haqqında hesabat təcrübə proqramı və tələbənin fərdi tapşırığı əsasında tərtib edilir.
- Hesabatda fərdi tapşırıqlarda qoyulan suallara olan cavablar əks olunmalıdır.

Hesabat aşağıdakılardan ibarətdir:

- Ümumi modul üzrə hesabat: Müəssisənin adı, inkişaf tarixi, xarakteristikası, idarəetmə orqanları və strukturu, əsas fəaliyyət növləri, sektorda payı (bazar payı);
- Xüsusi modul üzrə hesabat: müəsisənin struktur bölmələrinin təsviri, daxili sənədləşməsinin və fəaliyyətini tənzimləyən normativ bazanın öyrənilməsi,

- Tələbənin istər təcrübə keçdiyi bölmənin, istərsə də bütün təşkilatın fəaliyyətinin iqtisadi göstəricilərinin ümumi təhlili materialların səciyyələndirilməsi;

İxtisaslaşdırılmış modul üzrə hesabat: çıxarılan nəticələr, tələbə tərəfindən müəssisənin iqtisadi fəaliyyətinə dair aparılan təhlillərin nəticələrinə görə təklif və tövsiyyələrin hazırlanması.

Hesabata həmçinin tələbə tərəfindən təcrübə yerində topladığı və müəsisənin real fəaliyyətinin göstəricilərini əks etdirən müxtəlif sənədlər, hesablamalar və cədvəllər əlavə olunur.

**6.3.Təcrübə hesabatının tərtib edilməsinə dair tələblər:**

Hesabatın həcmi - əlavələr istisna olmaqla, kompüter yazısı ilə 20-30 səhifə olmalıdır.

Hesabat “Times New Roman” şrifti, 14 ölçüdə və 1,5 aralıqla çap edilməlidir. Kağızın formatı A4, yuxarı və aşağı sahələrdən 2sm, sağdan 1 sm və soldan 3sm olmalıdır. Hesabat qovluğa tikilir.

Analitik tədqiqatların nəticələri qrafik və diaqramların köməyi ilə illustrasiya edilə bilər.

Analitik hesablamalar əks olunan cədvəllərin adı və sıra nömrəsi olmalıdır. Hesabatın titul vərəqi qoyulan tələblərə müvafiq olaraq tərtib olunmalıdır.

Tələbələr hesabatla bərabər ona olan əlavələri ayrı qovluqda kafedraya təqdim edirlər. Bura aşağıdakılar daxildir:

- Mühasibat və statistik hesabat formalarının surəti;
- Hesabatlara olan əlavə informasiya;
- Müəsisənin fəaliyyətinə dair daxili normativ əsasnaməsinin surəti.

## 7. Aralıq attestasiyanın formaları (təcrübənin nəticələrinə əsasən)

İstehsalat təcrübəsinin sonunda imtahan verilir. Təcrübəni müdafiə edərkən proqramın və təcrübə tapşırıqlarının həcmi, təcrübə hesabatının tərtib edilməsinin düzgünlüyü və məzmununun keyfiyyəti, təcrübə rəhbəri tərəfindən verilən suallara cavabların düzgünlüyü, o cümlədən təşkilatdan təcrübə rəhbərin rəyi nəzərə alınır.

Təcrübə müddətinin sonunda tələbələrin qiymətləndirilməsi 100 ballıq sistemlə həyata keçirilir. 51-100 bal arasında bal toplamış tələbələr başqa akademik borcları olmadığı təqdirdə yekun dövlət attestasiyasına buraxılır.

100 ballıq sistemin təsnifatı:

| | | |
|---|---|---|
| 0-50 bal | qeyri-kafi | F |
| 51-60 bal | qənaətbəxş | E |
| 61-70 bal | kafi | D |
| 71-80 bal | yaxşı | C |
| 81-90 bal | çox yaxşı | B |
| 91-100 bal | əla | A |

## “İqtisdiyyat” ixtisası üzrə

## TƏCRÜBƏSININ - TƏQVIM PLANI

| № | Təcrübə üzrə Bölmələr (mərhələlər) təcrübələr | Təcrübədə iş növləri, o cümlədən tələbələrin müstəqil işi və əmək intensivliyi (saatlarla) | | | Cari nəzarətin formaları | |
|---|---|---|---|---|---|---|
| 1 | Hazırlıq mərhələsi, o cümlədən təşkilati görüş, təhlükəsizlik qaydaları ilə tanışlıq | 2 | 3 | 2 | | Təqvim planında qeyd edilir |
| 2 | İstehsalat təcrübəsinin keçməsi, o cümlədən | 245 | | | | |
| | 2.1. Təşkilatın əsas fəaliyyət istiqamətləri ilə tanışlıq; | 34 | | | | |
| | 2.2. Təsərrüfat subyektinin təşkilati strukturu, onun struktur bölmələrinin funksiyaları və onların qarşılıqlı əlaqəsi ilə tanışlıq; | 36 | | | | |
| | 2.3. İqtisadi fəaliyyətin əsas göstəricilərinin dinamikasının öyrənilməsi; | 35 | | | | |
| | 2.4. Göstəricilərin dəyişməsinə təsir edən amillərin təhlili və onların təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması; | 36 | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2.5. Göstərilən xidmətlərin keyfiyyətinin və bütövlükdə təşkilatın işinin öyrənilməsi; | 34 | | | | |
| | 2.6. İşçilərin norma və əməyinin ödənilməsinin təşkilinin öyrənilməsi; | 35 | | | | |
| | 2.7. Planlaşdırma və iqtisadi məlumatların emalı üçün informasiya texnologiyalarından istifadə ilə tanışlıq və s. | 35 | | | | |
| 3 | Təcrübə hesabatının hazırlanması | | | | | |
| 4 | Kafedradan olan istehsalat təcrübəsi rəhbərinə hesabatın təqdim edilməsi. | | | | | |

## Ədəbiyyat siyahısı:


1. Q.Mənkyü. Ekonomiksin əsasları. Bakı, 2009
2. Д.Лейнс. Общая теория занятости, процента и денег М, 2007
3. К.Р.Макконелл, С.М.Брю. Экономика. М, 2007
4. П.Э.Самуэльсон, В.Д.Нордхаус. Элономика. М, 2007
5. Новая Экономическая Энциклопедия. М, 2006
6. İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat – 1,2. Bakı, 2009
7. İqtisadi təlimlər tarixi. Dərslik. Bakı, 2005
8. Böyük İqtisadi Ensiklopediya. I-V cildlər, Bakı, 2012
9. Q.Qitəliyev, P.Həsənova. Mikroiqtisadiyyat, Bakı, Avrora nəşriyyatı, 2010.
10. S.İbadov. İqtisadiyyat (iqtisadi nəzəriyyə). Dərslik. Bakı, 2008
11. С.Фишер, Р.Дронбуш, Р.Шмалпзи. Элономика. М, 2001
12. Экономическая теория (Политэкономия). М, 2007
13. Экономика. Учебник. М, 2007
14. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, 2001
15. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, 2002
16. İqtisadi nəzəriyyə. Dərs  əsaiti. Bakı, 2003

**17.** İqtisadi nəzəriyyə kursu. Dərs vəsaiti. (Azərb. dilində). 3-cü nəşr. A.V.Sidoroviçin ümumi redaktəsi ilə. Bakı, 2013;

**18.** İqtisadi nəzəriyyə: Mikroiqtisadiyyat - 1,2. Dərslik. (Azərb. dilində) Q.P.Juravlyovanın ümumi redaktəsi ilə. Bakı, 2009;

**19.** Экономическая теория (политэкономия). Под.ред. В.И.Видяпина, Г.П.Журавлевой. М. РЭА им. Г.В.Плеханова, 2000;

**Tövsiyə edilən ədəbiyyat siyahısı:**

1. Мировая экономика. Экономика зар. стран: Уч-к/Под ред В. П. Колесова — М.:Флинта, 2000.
2. N.Qreqori, Mənkyu Ekonomiksin prinsirləri. Bakı, 2009;
3. Кемпбелл Р. Макконнел, Стенли Л. Врю. Экономикс: принципы, проблемы и политика. Москва, 2007
4. Manafov Q.N. İqtisadi nəzəriyyə: Mikroiqtisadiyyat. Metodiki vəsait. Bakı, 2008;
5. Нуреев Р.М. Курс микроэкономикии. Изд-во. Норма М, 2007;

6. Маршалл А. Принципы экономической Науки. М. прогресс, 1993. Т. 1-3;
7. Тарануха Ю.В., Земляков Д.Н. Микроэкономика: Учебник. М. Дело и Сервис, 2002;
8. Jack Harvey Ernie Jovsey. Müasir Ekonomiks. Bakı, 2008;
9. Общая экономическая теория. Под.ред. В.Ж.Видяпина и др. (Политэкономия), Москва, 1995;

## İnternet resursları

1. AR-sı İqtisadiyyat Nazirliyi, http://www.economy.gov.az
2. AR Mərkəzi Bankı, http://cbar.az,
3. AR Maliyyə Nazirliyi_, http://maliyye.gov.az,
4. Azərbaycan Respublikasının Gömrük Komitəsi, http://customs.gov.az
5. Azərbaycan Respublikasının Dövlət Vergi Xidmətii, http://taxes.gov.az,
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, // http://stat.gov.az/
7. AMEA İqtisadiyyat İnstitutu, economics.com.az
8. İqtisadiyyat qəzet, https://iqtisadiyyat.com